TÜRK DİLİ KONUŞAN ÜLKELER PARLAMENTER ASAMBLESİ

---

## TÜRKPA HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI

## DOQQUZUNCU İCLAS

*Bişkek, 9 iyun, 2022-ci il*

## "XARİCİ SİYASƏT ƏMƏKDAŞLIĞINDA PARLAMENTLƏRİN ROLU"

## TÖVSİYƏ QƏRARI

Parlament Assambleyası:

Dövlətlər və xalqlar arasında dostluq münasibətlərinin inkişafında parlamentlərin aparıcı rol oynadığını ***nəzərə alaraq***;

Parlamentlərarası dialoqun TÜRKPA üzv dövlətləri arasında qarşılıqlı anlaşmanın gücləndirilməsində əsas rol oynadığını ***vurğulayaraq***;

Bütün regionun rifahı naminə iqtisadi, sosial, humanitar və ekoloji problemlərin həllində milli parlamentlərin səylərinin əlaqələndirilməsində TÜRKPA-nın potensial rolunun əhəmiyyətini ***vurğulayaraq***;

Xarici siyasət sahəsində əməkdaşlıq dialoqunun gücləndirilməsinin TÜRKPA Regionunda birlik və həmrəyliyin təşviqinə, o cümlədən sülh və sabitliyin inkişafına töhfə verəcəyini ***qəbul edərək***;

Milli parlamentlərlə regional parlament assambleyaları arasında əlaqələrin inkişafının beynəlxalq siyasi ab-havaya müsbət təsir göstərdiyini ***qeyd edərək***;

TÜRKPA üzv parlamentləri arasında əməkdaşlığın türk dünyasının sabitliyi ilə bağlı ortaq məqsədlərə nail olmaq üçün milli səylərin və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə şərait yaratdığını ***ifadə edərək***;

TÜRKPA-nın müntəzəm görüşlərinin və onun milli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin üzv dövlətlərin parlamentləri arasında xarici siyasət sahəsində əməkdaşlıq üçün ümumi zəmin yaradılması istiqamətində ciddi addımlar olduğunu ***nəzərə alaraq***;

TÜRKPA-nı regionun ən aktual məsələləri üzrə danışıqlar yolu ilə TÜRKPA Üzv Dövlətlərin parlamentariləri arasında konstruktiv dialoqun təşviqi üçün mühüm platforma kimi ***görərək***;

TÜRKPA-nın ötən illər ərzində üzv dövlətlər arasında əlaqələrin inkişafına töhfə vermək və əməkdaşlığı gücləndirmək məqsədi daşıyan mühüm təşkilata çevrildiyini ***qəbul edərək***,

**TÜRKPA üzv dövlətlərinin parlament və hökumətlərinə tövsiyə edir**:

a) Parlament üzvlərinin mənsub olduqları parlament komissiyasının və ya dostluq qrupunun və ya onlara səfər edən xarici nümayəndə heyətləri ilə xarici əlaqələri *artırmaq*;

*b)* öz parlamentləri və ya hökumətləri tərəfindən təyin olunaraq xarici ölkələrdə əlaqələr *qurmaq*;

*c)* Parlament komissiyalarının xarici siyasət məsələsi ilə bağlı hökumət üzvlərinə yazılı və ya şifahi suallar verməsi imkanlarının *təkmilləşdirilməsi*;

d) parlament komissiyalarının beynəlxalq münasibətlər sahəsində hesabatlarını *hazırlamaq*;

*e)* TÜRKPA üzvü olan ölkələrin parlamentlərinin parlamentariləri və ekspertləri arasında təcrübə mübadiləsinə uyğun olaraq əməkdaşlığı *inkişaf etdirmək*;

*f)* Parlamentlərarası institutların parlament diplomatiyası səylərini əlaqələndirdiyi, parlamentlərarası əməkdaşlığı təşviq etdiyi və qlobal gündəliyin formalaşmasında böyük təsirə malik olduğu üçün TÜRKPA-nın bu sahədə səmərəli səylərini daha da *dəstəkləmək*;

*g)* Aparıcı beynəlxalq forumlar çərçivəsində TÜRKPA-ya üzv ölkələrin bir-birini dəstəkləməsi və ümumi maraq doğuran xarici siyasət məsələlərində ortaq mövqe tutması mexanizmlərini *hazırlamaq*;

*h)* TÜRKPA-ya üzv dövlətlərin nümayəndə heyətlərinin aparıcı parlamentlərarası təşkilatlarda müntəzəm görüşlərini keçirmək, məsləhətləşmələr və ümumi maraqların təşviqi üçün faydalı mexanizm *yaratmaq*;

*i)* TÜRKPA üzv ölkələrinin firavan, siyasi və iqtisadi cəhətdən sabit olması baxımından bir-birinin qarşılıqlı dəstəyini xarici siyasətlərinin təməl daşı kimi *qəbul etmək;*

j) İlki 9 mart 2022-ci il tarixində Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının çərçivəsində keçirilən “TÜRKPA Üzv Parlamentlərinin Xarici Əlaqələr üzrə Komitə Rəhbərlərinin Toplantısı”nı üzv ölkələrin əzmi və qətiyyəti ilə hər il *təşkil etmək;*

*k)* Parlamentlərarası dostluq qrupları parlamentlər arasında ikitərəfli əməkdaşlığın xüsusi aləti kimi parlament diplomatiyasının inkişafında, siyasi, iqtisadi və sosial-mədəni sahələrdə əlaqələrin və ümumi maraqların intensivləşdirilməsi istiqamətində fəaliyyətlərin təşviqində mühüm rol oynayır. Bu mənada üzv parlamentlərin Parlamentlərarası Dostluq Qrupları rəhbərlərinin görüşlərinin keçirilməsinə *dəstək vermək;*

*l)* TÜRKPA-nın yarandığı gün olan 21 noyabr tarixini bütün üzv ölkələrdə Türk Dünyası Parlamentarizm Günü kimi *qəbul etmək*.